**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# PREZİDENTLİK İNSTİTUTUNUN MÜASİR MODELLƏRİ

İxtisas: 5904.01 – "Siyasi institutlar və sistemlər"

Elm sahəsi: Siyasi elmlər

İddiaçı: **Tural Xalid oğlu Məmmədov**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERAT**

**Bakı – 2026**

Dissertasiya işi Bakı Dövlət Universitetinin "Politologiya və sosiologiya" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: fəlsəfə elmləri doktoru, dosent
**Vəsxanım Meylaqulu qızı Orucova**

Rəsmi opponentlər: siyasi elmlər doktoru, professor
**İradə Tofiq qızı Nuriyeva**

siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Səyavuş Kamran oğlu Qasımov**

siyasi elmlər üzrə fəlsəfə doktoru
**Ramid Söhbət oğlu Hüseynov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya Şurası.

Dissertasiya şurasının sədri: Akademik
**Urxan Kazım oğlu Ələkbərov**

Dissertasiya şurasının elmi katibi: siyasi elmlər doktoru, dosent
**Sevda Ağamirzə qızı Əliyeva**

Elmi seminarın sədri: siyasi elmlər doktoru, professor
**Sevil İmamverdi qızı Məmmədova**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Prezidentlik institutu dövlət idarəçiliyinin necə işlədiyini anlamaq üçün əsas açarlardan biridir. Çünki icra hakimiyyəti dövlət aparatının gündəlik fəaliyyətini istiqamətləndirən əsas mərkəzdir və bu mərkəzin başında prezident dayanır. Dövlət idarəçiləri qəbul edilən qərarların yalnız hüquqi mətnlərdən ibarət olmadığını, onların konkret siyasi prioritetlər və idarəetmə mexanizmləri ilə həyata keçirildiyini nəzərə almalıdırlar. Bu səbəbdən, prezidentliyin necə təşkil olunduğunu, qərarların hansı mərhələlərdən keçərək formalaşdığını və prezident administrasiyasının dövlət aparatına necə təsir etdiyini anlamaq idarəetmə baxımından xüsusi əhəmiyyət daşıyır. Praktik idarəçilik müstəvisində dövlət qulluqçularının fəaliyyəti çox vaxt birbaşa prezident tərəfindən müəyyənləşdirilən siyasi istiqamətlərə bağlı olur. Dövlət proqramları, sosial layihələr, iqtisadi təşəbbüslər və institusional islahatların böyük hissəsi icra hakimiyyətinin siyasi gündəliyindən qaynaqlanır. Məsələn, yeni iqtisadi strategiyanın qəbul edilməsi və ya sosial təminat proqramının genişləndirilməsi kimi qərarlar yalnız siyasi bəyanat olaraq qalmır. Bu qərarlar daha sonra müxtəlif nazirliklərin və dövlət qurumlarının konkret fəaliyyət planlarına çevrilir. Bu mərhələdə dövlət idarəçiləri həmin qərarların həyata keçirilməsinə məsul olan əsas aktorlara çevrilirlər. Prezidentlik institutunun mahiyyətini və iş prinsiplərini başa düşmək dövlət qulluqçularına hansı təşəbbüslərin prioritet olduğunu, hansı istiqamətlərin siyasi dəstək qazandığını və dövlət aparatının hansı sahələrə daha çox resurs yönəltdiyini düzgün qiymətləndirməyə imkan verir.

Digər tərəfdən dövlət siyasətinin həyata keçirilməsi tək bir qurumun fəaliyyəti ilə məhdudlaşmır. Müasir dövlət idarəçiliyi çoxsaylı nazirliklər, agentliklər və yerli idarəetmə strukturları arasında koordinasiya tələb edir. Məsələn, enerji siyasəti yalnız enerji nazirliyinin işi deyil. Bu prosesdə iqtisadiyyat, maliyyə, xarici siyasət və hətta ekoloji qurumlar iştirak edir. Belə mürəkkəb koordinasiya mexanizmi isə çox vaxt prezident administrasiyası tərəfindən formalaşdırılan ümumi siyasi istiqamət əsasında qurulur. Prezidentlik institutunun öyrənilməsi eyni zamanda dövlət hakimiyyətinin müxtəlif

qolları arasındakı münasibətləri başa düşmək üçün də vacib olub, bu münasibətlərin hansı mexanizmlər vasitəsilə qurulduğunu araşdırmaq dövlət hakimiyyəti daxilində nəzarət və tarazlıq sisteminin necə formalaşdığını anlamağa kömək edir. Sağlam siyasi sistem məhz bu tarazlıq mexanizmlərinin düzgün işləməsi nəticəsində formalaşır.

Məhz buna görə də prezidentlik institutunun necə işlədiyini bilən dövlət idarəçiləri bu institusional əlaqələri daha aydın başa düşür və müxtəlif qurumlar arasında koordinasiyanı daha effektiv şəkildə təşkil edə bilirlər. Bu baxımdan, prezidentlik institutunun öyrənilməsi yalnız idarəetmə prosesinin texniki tərəflərini anlamaq üçün deyil, həm də dövlət siyasətinin nəticələrini qiymətləndirmək üçün vacibdir. Dövlət idarəçiləri həyata keçirilən proqramların nə dərəcədə effektiv olduğunu müəyyənləşdirməkdə iştirak edirlər. Məsələn, sosial yardım proqramlarının real təsiri, iqtisadi təşviq paketlərinin nəticələri və ya regional inkişaf layihələrinin səmərəliliyi kimi məsələlər məhz bu qiymətləndirmə prosesinin bir hissəsidir.

Bir çox ölkələrdə prezidentlik institutu siyasi sistemin sabitliyini qoruyan əsas dayaqlardan biri hesab olunur. Prezident çox vaxt müxtəlif siyasi qüvvələr arasında tarazlıq yaradan və dövlət siyasətinin ümumi istiqamətini müəyyənləşdirən fiqur kimi çıxış edir. Bu səbəbdən, prezidentlik institutunun necə işlədiyini araşdırmaq siyasi sistemin güclü və zəif tərəflərini daha aydın görməyə imkan verir. Tədqiqatçılar müxtəlif ölkələrin təcrübəsini müqayisə etməklə hansı idarəetmə mexanizmlərinin daha effektiv olduğunu müəyyənləşdirə və demokratik idarəçiliyin inkişafı üçün daha uyğun modellər barədə nəticələr çıxara bilirlər. Prezidentlik institutunun müxtəlif formalarda mövcud olması da bu mövzunun öyrənilməsini daha maraqlı və vacib edir. Belə ki, dünyanın fərqli siyasi sistemlərində prezidentin rolu və səlahiyyətləri eyni deyil. ABŞ kimi ölkələrdə prezident icra hakimiyyətinin əsas rəhbəri kimi çıxış edir və hökumətin gündəlik fəaliyyətinə birbaşa rəhbərlik edir. Digər tərəfdən isə bəzi ölkələrdə prezident daha çox siyasi balans yaradan və dövlətin simvolik təmsilçisi rolunu oynayan fiqur kimi fəaliyyət göstərir. Rusiya, Çin və Hindistan kimi böyük dövlətlərdə isə prezidentlik institutunun forması və səlahiyyətləri həmin ölkələrin siyasi ənənələri və idarəetmə modelləri ilə sıx bağlıdır. Bu fərqlər

göstərir ki, prezidentlik institutunu vahid model kimi deyil, müxtəlif siyasi sistemlərə uyğunlaşan institusional mexanizm kimi nəzərdən keçirmək lazımdır.

Prezidentlik institutunun müasir modellərinin tədqiqi həmçinin ölkəmiz üçün də xüsusi əhəmiyyət daşıyır. Çünki Azərbaycan Respublikasının siyasi sistemi prezidentlik modelinə əsaslanır və dövlət idarəçiliyində əsas qərarlar məhz icra hakimiyyəti vasitəsilə həyata keçirilir. Bu səbəbdən müxtəlif ölkələrdə prezidentlik institutunun necə işlədiyini öyrənmək yalnız nəzəri maraq doğurmur, həm də Azərbaycan üçün praktiki nəticələr çıxarmağa imkan verir. Bu fərqli modellərin öyrənilməsi Azərbaycana beynəlxalq təcrübəni daha geniş perspektivdən qiymətləndirmək imkanı yaradır. Bu müqayisəli yanaşma yalnız nəzəri bilik toplamaq məqsədi daşımır. Əksinə, belə araşdırmalar mövcud sistemin hansı istiqamətlərdə daha effektiv işlədiyini və hansı sahələrdə təkmilləşdirməyə ehtiyac olduğunu göstərir. Dövlət idarəçiliyinin səmərəliliyini artırmaq üçün prezidentlik institutunun təşkilati strukturu, qərar qəbul etmə prosedurları və müxtəlif dövlət qurumları ilə əlaqələri daha aydın şəkildə analiz edilə bilər. Bu isə dövlət aparatının fəaliyyətində daha çevik idarəetmə mexanizmlərinin formalaşdırılmasına kömək edir.

Tədqiqatın aktuallığı bununla da bitmir; prezidentlik modellərinin öyrənilməsi eyni zamanda beynəlxalq müqayisələr aparmağa da imkan verir. Bu da o deməkdir ki, müxtəlif ölkələrin idarəetmə təcrübəsini araşdırmaq Azərbaycan üçün faydalı olan nümunələri müəyyən etməyə kömək edir. Məsələn, dövlət siyasətinin hazırlanmasında şəffaflığın artırılması, icra hakimiyyətinin fəaliyyətinin daha açıq şəkildə qiymətləndirilməsi və dövlət qurumlarının cəmiyyət qarşısında məsuliyyətinin gücləndirilməsi kimi məsələlər bu müqayisəli təhlillər nəticəsində daha aydın görünür. Digər ölkələrin uğurlu idarəetmə təcrübələrinin öyrənilməsi Azərbaycan üçün yeni institusional yanaşmalar barədə düşünmək imkanı yaradır.

Beləliklə, tədqiqat istiqamətinin aktuallığını üç əsas məqam üzərində punktuallaşdıra bilərik:

– Prezidentlik institutu müasir dövlət idarəçiliyində icra hakimiyyətinin əsas təşkilati mərkəzlərindən biri olduğu üçün onun fəaliyyət mexanizmini anlamaq dövlət aparatının necə işlədiyini izah

etmək baxımından xüsusi əhəmiyyət daşıyır. Bu institutun qərar qəbuletmə mexanizmlərinin, təşkilati strukturunun və dövlət siyasətinin formalaşmasına təsirinin öyrənilməsi dövlət idarəçiliyinin praktik fəaliyyətini daha dəqiq təhlil etməyə imkan verir.

– Dünyanın müxtəlif ölkələrində prezidentlik institutunun fərqli modellərdə fəaliyyət göstərməsi bu sahədə müqayisəli siyasi təhlillərin aparılmasını zəruri edir. Müxtəlif prezidentlik sistemlərinin güclü və zəif tərəflərinin araşdırılması dövlət hakimiyyəti qolları arasındakı münasibətlərin və nəzarət tarazlıq mexanizmlərinin necə formalaşdığını daha aydın şəkildə anlamağa kömək edir.

– Azərbaycan Respublikasında da siyasi sistem prezidentlik modelinə əsaslandığı üçün bu institutun müasir formalarının öyrənilməsi ölkə üçün praktiki əhəmiyyət kəsb edir. Müxtəlif ölkələrin təcrübəsinin müqayisəli şəkildə təhlili mövcud idarəetmə mexanizmlərinin qiymətləndirilməsinə və onların təkmilləşdirilməsi istiqamətində elmi nəticələr çıxarmağa imkan yaradır.

Müasir prezidentlik modellərinin nəzəri əsaslarını anlamaq üçün siyasi düşüncə tarixində hakimiyyət bölgüsü prinsipi ətrafında formalaşmış yanaşmalar xüsusi əhəmiyyət kəsb edir. Bu prinsip ilkin olaraq Antik Yunan siyasi fikrində Platon və Aristotel tərəfindən irəli sürülmüş, daha sonra qədim Roma siyasi-hüquqi düşüncəsində Polibi tərəfindən inkişaf etdirilmişdir. Erkən orta əsrlərdə hakimiyyətin mənbəyi və legitimliyi məsələsi Marsiliy Paduanski tərəfindən müzakirə edilərək hakimiyyət bölgüsü ideyasının daha sistemli şəkildə formalaşmasına zəmin yaratmışdır. Bu isə ilk dəfə fundamental və sistemli formada C.Lokk tərəfindən işlənmiş, daha sonra Ş.L. Monteskye tərəfindən institusional çərçivəyə salınaraq hakimiyyət qolları arasında səlahiyyət bölgüsü və “balans və tarazlıq” mexanizmi konseptual səviyyədə əsaslandırılmışdır. Monteskyenin bu yanaşması ABŞ dövlətçilik modelinin formalaşmasına birbaşa təsir göstərmiş, Hamilton, Ceferson və Medison tərəfindən konkret siyasi sistem daxilində tətbiq edilərək inkişaf etdirilmişdir. XIX əsrdə bu istiqamət T.Hobbs, J.Russo, İ.Kant və Q.Hegel kimi mütəfəkkirlərin əsərlərində müxtəlif aspektlərdən şərh edilmiş, XX əsrdə isə icra hakimiyyəti və hakimiyyətin funksional təşkili problemləri M.Veber, M.Fuko və A.Tokvil tərəfindən daha dərin sosial və institusional kontekstdə təhlil

olunmuşdur. Müasir dövrdə isə Kreyq və Tomkins, Dayzenhaus, A.V.Daysi, Kempbell, Rokmann və J.Aberbax kimi tədqiqatçılar icra hakimiyyəti institutlarının struktur xüsusiyyətlərini, hüquqi əsaslarını və siyasi sistem daxilində rolunu araşdıraraq prezidentlik modellərinin nəzəri çərçivəsinin genişlənməsinə mühüm töhfələr vermişlər.

Yuxarıda sadalananlar dünya siyasi elmi tarixində mühüm nəzəri ədəbiyyatlar hesab olunur. Bununla belə, Azərbaycanda da prezidentlik instititu nəzəri baxımdan kifayət qədər təhlil olunmuşdur. Ş.Əliyevin 1994-cü ildə nəşr olunmuş kitabında prezidentlik institutu dövlət idarəçiliyinin mərkəzi elementi kimi təhlil edilir və onun təşkilati strukturu, səlahiyyət çərçivəsi və siyasi sistemdəki rolu sistemli şəkildə izah olunur. Müəllif daha çox institutun hüquqi əsaslarına və funksional xüsusiyyətlərinə fokuslanaraq prezidentliyin dövlət siyasətinin formalaşmasındakı yerini nəzəri baxımdan əsaslandırır[1].

A.Quliyevin Ukrayna və Azərbaycan respublikalarının müqayisəli təhlilinə əsaslanan tədqiqatında prezidentlik institutu beynəlxalq təhlükəsizlik kontekstində, xüsusilə terrorizmə qarşı mübarizə çərçivəsində müqayisəli-hüquqi yanaşma ilə araşdırılır. Müəllif müxtəlif verilmiş ölkələrin qanunvericilik təcrübəsini müqayisə edərək prezidentin bu sahədə səlahiyyətlərinin hüquqi mexanizmlərini və onların effektivliyini təhlil edir[2].

V.Bağırlının dissertasiya işində prezidentlik institutu Azərbaycan və ABŞ nümunəsində müqayisəli hüquqi perspektivdən araşdırılır və hər iki modelin struktur və funksional fərqləri üzə çıxarılır. Tədqiqat prezidentin səlahiyyətləri, hakimiyyət qolları ilə münasibətləri və institusional xüsusiyyətləri üzərindən fərqli idarəetmə modellərinin üstün və zəif tərəflərini sistemli şəkildə təhlil edir[3].

---

[1] Əliyev, Ş. Prezidentlik institutu / Ş.Əliyev. – Bakı: Bakı Universiteti. – 1994. – 115 s.

[2] Гулиев, А. Институт президентства в противодействии международному терроризму: сравнительно-правовой анализ законодательств Украины и Азербайджанской Республики / А.Гулиев. – Киев: НАУ, – 2012. – 438 с.

[3] Bağırlı, V.D. Azərbaycan Respublikasında və ABŞ-da prezidentlik institutu (müqayisəli-hüquqi tədqiqat): / hüquq üzrə fəlsəfə doktoru dissertasiyanın avtoreferatı / – Bakı, 2014, – 25 s.

Ölkəmizdə, həmçinin V.Cəfərov, Ş.Əliyev, C.Həsənov, N.İbrahimov, K.Musayev, F.Nağıyev, E.Novruzov, V.Ömərov, Ə.Rzayev, N.Şükürovun məqalələrində hakimiyyət bölgüsü problemi, onun nəzəri metodoloji aspektləri, eləcə də sırf prezident hakimiyyətinin müxtəlif aspektləri öyrənilir[4].

Son illərdə qardaş Türkiyədə prezidentlik institunun inkişafı xüsusi maraq doğurur. Bu, xüsusilə son 10 ildə Türkiyənin siyasi sistemində baş verən transformasiyalarla bağlıdır desək yanılmarıq. Türkiyədə prezidentlik problemi S.Akdemir, B.Alkan, S.Altınkök, M.Benli, A.Çapar, Ö.Çələbi, Ö.Çelik, C.Demirkaya, M.Duyar, M.Erdoğan, O.Cansız, M.Göç, C.Gül, M.İşık, H.Kaçanoğlu, M.Köçyegit, M.Özkan, A.Ünal və digərlərinin əsərlərində araşdırılır[5].

---

[4] Cəfərov, V. Hüquqi dövlətdə hakimiyyət bölgüsü // Ekspress. – 2016. 27 dekabr.; Əliyev, Ş. Prezidentlik institutu / Ş.Əliyev. – Bakı: Bakı Universiteti. – 1994. – 115 s.; Həsənov, C. Azərbaycanda Prezidentlik institutunun tarixi və kökləri haqqında düşüncələr // – Bakı: Təhsilimiz, – 2003. N 3, – s.13-15.; İbrahimov, N. Prezidentli və parlamentli respublikalarda prezidentliyin əsas xüsusiyyətləri // – Bakı: Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. – 2018. N 64, – s.237-245.; Musayev, K.İ. Hakimiyyətin bölünməsi konsepsiyası və prezidentlik institutunun yaranması // – Bakı: Elmi məcmuələr. Milli Aviasiya Akademiyası, – 2012. N 4, – s.53-57.; Nağıyev, F. Konstitusiyada dəyişikliklər hakimiyyət qolları arasında tarazlığın təmin olunmasına xidmət edir // Xalq qəzeti. – 2016, 11 sentyabr. – s.3.; Novruzov, E.M. Müstəqil Azərbaycan Respublikasında prezidentlik institutunun formalaşması // – Bakı: Elmi məcmuələr. Milli Aviasiya Akademiyası. – 2015. N 1, – s.113-114.; Ömərov, V. Hüquqi dövlət və prezidentlik institutu // Səs qəzeti. – 2011, 22 sentyabr. – s.10.; Rzayev, Ə. ABŞ konstitusiyasının formalaşması zaman və məkan konterkstində // – Bakı: Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə, – 2013. – s.5-6.

[5] Akdemir, S. Kuvvetler Ayrılığına Yenilikçi Bir Bakış: Dörtlü Kuvvet Önerisi // İnsan ve Toplum Bilimleri Araştırmaları Dergisi, – 2019. 8 (1), – s.685-710.; Alkan, B.N. 1982 Anayasası çerçevesinde Cumhurbaşkanının sorumsuzluğu / B.N.Alkan. – Mersin: Çağ Üniversitesi Sosyal Bilimler Enstitüsü, – 2022. – 254 s.; Altınkök, S. Constrained Parliamentarism Versus Semipresidentialism in the Context of the Principle of the Separation of Powers // Bolu Abant İzzet Baysal Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, – 2015. 15(3), – p.179-200.; Benli, M.D. Kuvvetler ayrılığı prensibinin temel hak ve özgürlüklerin korunmasındaki işlevi / M.D.Benli. – İstanbul: İstanbul Üniversitesi Sosyal Bilimler Enstitüsü. – 2021. – 180 s.; Çapar, A. Yargı Bağımsızlığı Ekseninde Cumhurbaşkanlığı Hükümet Sisteminde Yürütme ve Yargı İlişkisi // İnönü Üniversitesi Hukuk Fakültesi Dergisi, – 2022. 13(1), – s.148-165.; Çelebi, Ö. Amerika Birleşik

Qonşu Rusiyada da prezidentlik institutu ilə bağlı araşdırmalar az deyildir. O.Belyayeva, A.Bersenev və A.Miroşniçenko, O.Qrişayeva, V.Yeqorov, O.Zaznayev, O.Zuykov, M.Mecidovna, S.Pareçina, M.Farukşin, M.Şuqart və M.Kerri prezidentliyin müxtəlif aspektlərini araşdırmışdır[6].

---

Devletleri'nde Başkanın Kararname Çıkarma Yetkisi // Çankırı Karatekin Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, – 2022. 13(1), – s.179-190.; Çelik, Ö. Amerika Birleşik Devletleri Hukukunda Yürütme İmtiyazı // Selçuk Üniversitesi Hukuk Fakültesi Dergisi, – 2022. 30(3), – s.1253-1299.; Demirkaya, C. Başkanlık sistemi ve yarı başkanlık sistemi analizi: ABD ve Fransa örneği / C.Demirkaya. – İstanbul: Nişantaşı Üniversitesi Sosyal Bilimler Enstitüsü, – 2017. – 184 s.; Duyar, M. Kuvvetler ayrılığı ve siyasal istikrar ilişkisi / M.Duyar. – Sakarya: Sakarya Üniversitesi Sosyal Bilimler Enstitüsü, – 2011. – 197 s.; Erdoğan, M. Başkanlık sistemi ve parlamenter sistemdeki krizler neticesinde ortaya çıkan yeni Türk tipi başkanlık sistemi /M.Erdoğan. – Niğde: Niğde Ömer Halisdemir Üniversitesi Sosyal Bilimler Enstitüsü, – 2019. – 199 s.; Cansız, O. The powers and functions of the Congress in the United States Presidential system / O.Cansız. – İstanbul: Bahçeşehir Üniversitesi Lisansüstü Eğitim Enstitüsü, – 2022. – 154 p.; Göç, M. Cumhurbaşkanlığı hükümet sistemi ve ABD başkanlık sisteminde yürütmeye yardımcı organların karşılaştırmalı analizi / M.Göç. – Van: Van Yüzüncü Yıl Üniversitesi Sosyal Bilimler Enstitüsü, – 2022. – 187 s.; Gül, C. Çağdaş Siyasal Rejimlerde Etkin Yürütme Olgusu/ C.Gül, K.Karagöz // – Ankara: Hacı Bayram Veli Üniversitesi Hukuk Fakültesi Dergisi, – 2007. 11(1), – s.711-752.; Işık, M. Hukuk devleti bağlamında Cumhurbaşkanlığı Hükümet Sisteminin kuvvetler ayrılığı açısından bir değerlendirmesi / M.Işık. – İstanbul: Aksaray Üniversitesi Sosyal Bilimler Enstitüsü, – 2023. – 221 s.; Kaçanoğlu, H. Türkiye'de yeni cumhurbaşkanlığı hükümet sistemi: başkanlık, yarı başkanlık ve parlamenter sistem üzerine karşılaştırmalı bir analiz / H.Kaçanoğlu. – Kırşehir: Kırşehir Ahi Evran Üniversitesi Sosyal Bilimler Enstitüsü, – 2022. – 169 s.; Koçyeğit, M. Azerbaycan ve Türkiye başkanlık sistemlerinin karşılaştırmalı olarak incelenmesi / M.Koçyeğit. – Antalya: Akdeniz Üniversitesi Sosyal Bilimler Enstitüsü, – 2021. – 192 s.; Özkan, M. Başkanlık sisteminde başkanın statüsü ve yetkileri / M.Özkan. – Ankara: Başkent Üniversitesi Sosyal Bilimler Enstitüsü, – 2017. – 150 s.; Ünal, H. Cumhurbaşkanlığı Hükümet Sisteminin Yürütme Erki Bağlamında Değerlendirilmesi // Süleyman Demirel Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi, – 2021. 2(26), – s.225-246.

[6] Беляева, О.М. Теория разделения властей и концепция неотчуждаемых (естественных) прав человека через призму учения Дж. Локка // История государства и права. – 2017. № 18, – с. 3-8.; Берсенев, А.А. Становление и развитие теории разделения властей/ А.А.Берсенев, А.В.Мирошниченко // International Journal of Humanities and Natural Sciences, – 2022. vol. 5-2 (68), – с. 220-225.; Гришаева, О.Н. Сценарии развития института президентства //

Sırf prezidentlik institutunun istər formalaşması, istər icra hakimiyyət mexanizmi kimi xüsusiyyətlərinin öyrənilməsində, dünya ölkələrində prezidentlik institutunun tətbiq xüsusiyyətlərinin və funskional təzahürlərinin öyrənilməsində V.Vayl, T.Kambel, C.Eoin, C.Mullers, D. Çevers, C. Kameron, C.Slapin, M.Kanel və M.Kimel, B.Duiqnan, G.Pikis kimi qərb alimlərinin tədqiqatları xüsusi önəm daşıyır[7].

---

Исторические, философские, политические и юридические науки, культурология и искусствоведение. Вопросы теории и практики, – 2014. N 2-1(40), – с. 51-53.; Егоров, В.Г. Президентализм и парламентаризм в политических системах новых независимых государств // Политическая наука и современное общество: сб. науч. тр. / под ред. В.Г. Егорова. – Москва: ИИУ МГОУ, – 2013. Вып. 4, – с. 4-25.; Зазнаев, О.И. Модели контролируемой передачи президентской власти/ О.И.Зазнаев, В.В.Сидоров // Политическая наука. – 2019. № 4. – с.16.; Зазнаев, О.И. Индексный анализ полупрезидентских государств Европы и постсоветского пространства // Полис, – 2007. № 32. – с. 146-164.; Зуйков, А.В. Эволюция института президентства Российской Федерации: / Автореферат диссертации на соискание ученой степени кандидата юридических наук/. – Москва, 2009, – 28 с.; Меджидовна, М.Т. Зарождение и развитие института президентской власти в зарубежных странах // Вестник Адыгейского государственного университета. Серия 1: Регионоведение: философия, история, социология, юриспруденция, политология, культурология. – 2007. – Т 92. – с.3-6.; Паречина, С.Г. Институт президентства: история и современность / Под общ. ред. Е.В. Матусевича / С.Г.Паречина. – Минск: ИСПИ, – 2003. – 163 с.; Фарукшин, М.Х. Сроки президентских полномочий, или Бессрочная верховная власть // Политическая наука. – 2019. № 4. – с.240-261.; Шугарт, М.С.Президентские системы / М.С.Шугарт, Дж.М.Кэрри // Современная сравнительная политология. – Москва: Юрист, – 1997. – с. 198-246.

[7] Vile, V.J.C. Constitutionalism and the Separation of Powers / V.J.C.Vile. – Carmel: Liberty Fund Inc., – 2010. – 468 p.; Eoin, C. The new separation of powers: a theory for the modern state / C.Eoin. – Oxford: Oxford University Press, – 2009. – 302 p.; Moellers, C. The Three Branches: A Comparative Model of Separation of Powers/ C.Mollers. – Oxford: Oxford University Press, – 2013. – 280 p.; Cheever, D.S. American Foreign Policy and the Separation of Powers / D.S.Cheever. – New York: Forgotten Books, – 2018. – 256 p.; Cameron, C.M. Veto Bargaining: Presidents and the Politics of Negative Power (Political Economy of Institutions and Decisions) / C.M.Cameron. – London: Routledge, – 2010. – 410 p.; Slapin, J.B. Veto Power: Institutional Design in the European Union / J.B.Slapin. – Michigan: The University of Michigan Press, – 2011. – 197 p.; Kanell, M.E. Presimetrics: What the Facts Tell Us About How the Presidents Measure Up On the Issues We Care About /

Ədəbiyyat icmalı göstərir ki, ölkəmizdəki mövcud tədqiqatlarda prezidentlik institutu əsasən ya hüquqi-normativ çərçivədə, ya da konkret ölkə nümunələri üzrə məhdud müqayisəli yanaşma ilə təhlil olunur, lakin bu institutun müasir modelləri üzrə sistemli, konseptual və ümumiləşdirilmiş nəzəri çərçivə formalaşdırılmamışdır. Eyni zamanda, tədqiqatlarda prezidentlik institutu çox vaxt hakimiyyət bölgüsü prinsipi daxilində dolayı şəkildə araşdırılır, onun müstəqil analitik kateqoriya kimi modelləşdirilməsi və təsnifatı isə kifayət qədər işlənilməmişdir. Bizim tədqiqatımız isə məhz həmin boşluğu dolduraraq prezidentlik institutunu ayrıca nəzəri obyekt kimi götürür, onun müasir modellərini sistemli şəkildə təsnif edir və müxtəlif siyasi sistemlər kontekstində vahid analitik çərçivə təqdim edir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti hakimiyyətin icra qolu çərçivəsində formalaşan prezidentlik institutudur. Tədqiqatın predmeti isə prezidentlik institutunun nəzəri və metodoloji əsasları, funksional xüsusiyyətləri, təzahür formaları və dünya ölkələrinin təcrübəsində ortaya çıxan müasir modelləridir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi hakimiyyətin icra qolu olaraq prezidentlik institutunun müasir modellərini sistemli şəkildə təhlil etmək, onların əsas xüsusiyyətlərini və təzahür formalarını müəyyənləşdirməkdir. Bu baxımdan, tədqiqatımızın aşağıdakı vəzifələri vardır:

– Hakimiyyət bölgüsünə metodoloji yanaşmaları və hakimiyyətin icra mexanizminin təsisatlanmasını təhlil etmək;

– Prezidentlik institutunu hakimiyyətin icra mexanizmi kimi nəzərdən keçirmək;

– Prezidentlik institutunu beynəlxalq təcrübə kontekstində öyrənmək;

– Prezidentlik institutunun müasir modellərinin səciyyəvi xüsusiyyətlərini müəyyənləşdirmək;

---

M.Kanell, M.Kimel. – New York: Black Dog & Leventhal, – 2010. – 304 p.; Duignan, B. The U.S. Constitution and the Separation of Powers / B.Duignan. – London: Britannica Educational Publishing, – 2018. – 339 p.; Pikis, G.M. Constitutionalism - Human Rights - Separation of Powers: The Cyprus Precedent / G.M.Pikis. - Boston: BRILL, – 2006. – 188 p.

– Prezidentlik modellərinin inkişaf perspektivlərini, eləcə də gələcək statuslarını tədqiq etmək;

– Azərbaycan Respublikasında prezident idarəçiliyinin özünəməxsus xüsusiyyətlərini aşkara çıxarmaq.

**Tədqiqat metodları.** Tədqiqat işində həm ümummәntiqi, həm də xüsusi elmi metodlardan kompleks şəkildə istifadə edilmişdir. Analiz və sintez vasitəsilə prezidentlik institutunun struktur elementləri və funksional xüsusiyyətləri ayrılıqda və qarşılıqlı əlaqədə öyrənilmiş, induksiya və deduksiya yolu ilə ümumi nəzəri nəticələr çıxarılmışdır. Eyni zamanda sistemli və struktur-funksional yanaşma prezidentlik institutunun bütöv siyasi sistem daxilində yerini və rolunu müəyyən etməyə imkan vermiş, müqayisəli təhlil metodu vasitəsilə isə müxtəlif ölkələrdə tətbiq olunan prezidentlik modelləri qarşılaşdırılaraq onların oxşar və fərqli cəhətləri aşkar edilmişdir. Bununla yanaşı, kontent-analiz metodu əsasında siyasi və hüquqi mətnlərin təhlili aparılmış, əldə olunan nəticələr ümumiləşdirilərək tədqiqatın məqsədinə uyğun elmi qənaətlər formalaşdırılmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqatın nəticəsində aşağıdakı müddəalar müdafiəyə çıxarılır:

– Prezidentlik institutu müasir siyasi sistemlərdə yalnız formal icra orqanı deyil, dövlət siyasətinin formalaşdırılması, icrası və idarəetmə istiqamətlərinin müəyyənləşdirilməsində mərkəzi rol oynayan əsas institusional mexanizmdir. Formal konstitusion model eyni olsa belə, prezidentlik institutunun faktiki fəaliyyəti və prezidentin real siyasi çəkisi institusional ənənələrdən, siyasi elitanın strukturundan və qeyri-formal idarəetmə mexanizmlərindən asılı olaraq əhəmiyyətli dərəcədə dəyişir.

– Prezidentlik institutunun konkret modeli konstitusion quruluş, siyasi mədəniyyət, partiya sistemi, seçki mexanizmi və hakimiyyət qolları arasındakı münasibətlərdən asılı olaraq formalaşır və buna görə müxtəlif ölkələrdə eyni tipdə təzahür etmir.

– Müqayisəli beynəlxalq təcrübə göstərir ki, prezidentin parlament üzərində partiya əsaslı üstünlüyə malik olduğu sistemlərdə icra hakimiyyəti daha mərkəzləşmiş və dominant xarakter alır, əks halda isə hakimiyyət qolları arasında balans daha dayanıqlı şəkildə qorunur.

– İcra hakimiyyətinin mərkəzləşdiyi və prezidentin güclü səlahiyyətlərə malik olduğu sistemlərdə qərar qəbuletmə prosesi daha çevik və operativ xarakter alır, bu isə xüsusilə böhran və qeyri-müəyyənlik şəraitində dövlətin sürətli reaksiya verməsini təmin edir. Belə institusional disbalans müəyyən hallarda idarəetmə effektivliyini artıraraq strateji təşəbbüslərin daha qısa müddətdə hazırlanması və icrasına imkan yaradır.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliklərini aşağıdakı kimi ümumiləşdirmək olar:

– Bu tədqiqatda Azərbaycan siyasi elmi üçün ənənəvi olan ümumi hakimiyyət bölgüsü yanaşmasından fərqli olaraq prezidentlik institutu ayrıca və müasir nəzəri çərçivə daxilində sistemli şəkildə yenidən konseptuallaşdırılmışdır.

– Dissertasiya işində postsovet məkanında üstünlük təşkil edən dolayı və məhdud yanaşmaların əvəzinə Qərb siyasi elminin aktual paradiqmaları inteqrasiya edilərək prezidentlik institutuna dair müstəqil və birbaşa nəzəri-metodoloji model formalaşdırılmışdır.

– Tədqiqat çərçivəsində ilk dəfə olaraq demokratik rejimlərdə prezidentlik institutları kontinental siyasi mədəniyyət fərqləri əsasında modelləşdirilmiş və onların regional əsaslı təsnifatı təqdim edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat əsasən nəzəri xarakter daşısa da onun nəticələri praktik elmi istifadə baxımından da əhəmiyyətlidir, çünki dissertasiya çərçivəsində sistemləşdirilən yanaşmalar, modellər və çıxarılan nəticələr prezidentlik institutu üzrə gələcək araşdırmalar üçün hazır konseptual baza və etibarlı istinad mənbəyi rolunu oynaya bilər. Xüsusilə prezidentlik modellərinin təsnifatı, onların funksional xüsusiyyətlərinin analizi və müqayisəli yanaşma çərçivəsində əldə olunan nəticələr yeni tədqiqatların qurulmasında metodoloji istiqamət verə bilər. Eyni zamanda bu materiallar ali təhsil müəssisələrində siyasi institutlar, dövlət idarəçiliyi və müqayisəli siyasət kimi fənlərin tədrisində konkret nümunə və analitik baza kimi istifadə oluna bilər, tələbələrin həm nəzəri biliklərini dərinləşdirməyə, həm də müxtəlif idarəetmə modellərini daha aydın və sistemli şəkildə qavramasına imkan yaradar.

**Aprobasiyası və tətbiqi.** Yerinə yetirilən dissertasiya işinin əsas elmi nəticələri 10 elmi işdə, o cümlədən 4 beynəlxalq və respublika səviyyəli konfrans materiallarında, nüfuzlu jurnallarda dərc olunmuş 6 elmi məqalədə əksini tapmışdır. Dissertasiyanın əsas nəticələri aşağıdakı konfranslarda məruzə edilmişdir:

– Xarici ölkələrdə prezidentlik institutunun modelləri // 4. Uluslararası 29 ekim bilimsel araştırmalar sempozyumu, 29-30 okyabr, Türkiyə, 2022;

– Prezidentlik institutu: tarixi, strukturu və dövlətdəki rolu // Yeni geosiyasi şəraitdə sosial inkişafın planlaşdırılması və proqnozlaşdırılması yolları, Gənc tədqiqatçıların respublika elmi-praktik konfransının materialları, II hissə, 20 oktyabr, Bakı, 2023;

– Çin və İranda prezidentlik institutunun təhlili // Gənc tədqiqatçıların VII respublika elmi konfransı, 15 mart, Bakı, 2024.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Bakı Dövlət Universitetinin Politologiya və Sosiologiya kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş (17676 işarə), I fəsil (75126 işarə), II fəsil (71200 işarə), III fəsil (83680 işarə), nəticə (6550 işarə) və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Bütövlükdə dissertasiya işi istifadə olunmuş ədəbiyyat siyahısı istisna edilməklə 254232 işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Tədqiqatın **"Giriş"** hissəsində dissertasiya işinin mövzusunun aktuallığı əsaslandırılmış, tədqiqatın obyekti və predmeti, eyni zamanada məqsəd və vəzifələri müəyyənləşdirilmiş, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti müəyyən edilmiş, müdafiəyə çıxarılan müddəalar verilmiş, işin strukturu və həcmi qısa şəkildə göstərilmişdir.

Tədqiqatın I fəsli **"Prezidentlik institutu hakimiyyətin mühüm elementi kimi"** adlanıb, 2 parqrafdan ibarətdir. I paraqraf ***"Hakimiyyətin bölgüsünə metodoloji baxış"*** haqqında olub, burada müəllif göstərir ki, hakimiyyət bölgüsü prinsipi ilkin mərhələdə

dövlət idarəçiliyinin rasional təşkili problemi kimi ortaya çıxmış və onun nəzəri əsasları hələ Antik dövrdə Platon və Aristotel tərəfindən qoyulmuşdur; bu yanaşma sonradan Polibi tərəfindən Roma idarəetmə sistemi üzərində konkretləşdirilmiş və erkən orta əsrlərdə Marsiliy Paduanski tərəfindən hakimiyyətin mənbəyi və legitimliyi kontekstində yenidən şərh olunmuşdur. Daha sistemli və institusional çərçivə isə Con Lokk tərəfindən formalaşdırılmış, Şarl Lui Monteskye tərəfindən isə inkişaf etdirilərək hakimiyyət qolları arasında funksional ayrım, səlahiyyət bölgüsü və "balans və tarazlıq" mexanizmi kimi konkret prinsiplərlə zənginləşdirilmişdir; bu model sonradan ABŞ siyasi sistemində Hamilton, Cefferson və Medison tərəfindən praktik tətbiq səviyyəsinə gətirilmişdir.

Sonrakı mərhələdə nəzəri inkişaf xətti daha geniş fəlsəfi və sosioloji çərçivəyə daxil olmuş, Tomas Hobbs, Jan Jak Russo, İmmanuel Kant və Georg Hegel kimi düşünürlər hakimiyyətin mahiyyəti, legitimliyi və dövlət quruluşu ilə bağlı fərqli konseptual yanaşmalar irəli sürmüşlər; XX əsrdə isə Maks Veber icra hakimiyyətini rasional-bürokratik idarəetmə modeli ilə əlaqələndirmiş, Mişel Fuko hakimiyyətin mikro-səviyyəli yayılma mexanizmlərini ön plana çıxarmış, Aleksis de Tokvil isə demokratik sistemlərdə icra hakimiyyətinin cəmiyyət üzərində təsirini analiz etmişdir. Müasir dövrdə isə Kreyq və Tomkins, Dayzenhaus, A.V.Daysi, Kempbell, Rokmann və Ceyms Aberbax kimi tədqiqatçılar icra hakimiyyətinin institusional strukturlarını, hüquqi məhdudiyyətlərini və siyasi funksionallığını daha spesifik olaraq araşdıraraq prezidentlik institutunun müstəqil analitik obyekt kimi formalaşmasına töhfə vermişlər.

II paraqraf isə öz növbəsində ***"Hakimiyyətin icra mexanizminin təsisatlanması"***nı tədqiq edir. Burada qeyd olunur ki, icra hakimiyyətinin institusionallaşması siyasi sistemin sabitliyini təmin edən strukturlaşdırılmış qaydalar, normativ çərçivələr və bürokratik mexanizmlər vasitəsilə formalaşır və bu prosesin nəzəri kökləri Aristotelə qədər uzansa da, sistemli yanaşma Maarifçilik dövründə yaranmışdır. Maks Veberin "hakimiyyət = legitimləşdirilmiş güc" tezisi bu çərçivədə icra hakimiyyətinin institutlar vasitəsilə rəsmiləşdirilməsinin onun qəbul olunmasının

əsas şərti olduğunu göstərir, Monteskye isə hakimiyyət bölgüsü ilə icra hakimiyyətinin həddindən artıq mərkəzləşməsinin qarşısını alan institusional mexanizmi əsaslandırır; nəticədə konstitusiya, hüquqi baza və bürokratik aparat icra hakimiyyətinin sabitlik, hesabatlılıq və legitimlik qazanmasının əsas alətlərinə çevrilir.

İcra hakimiyyəti statik institut deyil, dəyişən siyasi və sosial kontekstdə formalaşan dinamik idarəetmə mexanizmidir və bu xüsusiyyət onu digər hakimiyyət qollarından fərqləndirir. Bu yanaşma ABŞ, İngiltərə, Fransa və Avstraliya kimi ölkələrin konstitusion təcrübəsində də görünür, burada icra hakimiyyətinin sərhədləri sərt şəkildə müəyyən edilmir, əksinə zərurilik doktrinası və qanunilik prinsipi əsasında elastik şəkildə tənzimlənir; bu isə icra hakimiyyətinə gözlənilməz situasiyalara adaptasiya olmaq imkanı verir, lakin eyni zamanda hüquqi çərçivə daxilində qalma zərurəti ilə məhdudlaşdırılır.

Burada müəllif həm də icra hakimiyyətinin nəzəri əsaslarının klassik və müasir siyasi düşüncədə necə çoxşaxəli şəkildə inkişaf etdiyini göstərir: Aristotel icra hakimiyyətini qanunun aliliyi və balanslı idarəetmə ilə əlaqələndirərək empirik model təqdim edir, Platon isə onu mərkəzləşdirilmiş və filosof-hökmdar tərəfindən idarə olunan ideal model kimi təsvir edir; Hobbs güclü və bölünməz suveren icra hakimiyyətini sosial nizamın əsas şərti kimi müdafiə edir, Russo isə onu "ümumi iradə"nin icraçısı kimi məhdudlaşdırır. Bu klassik xətt Veberin rasional-hüquqi bürokratiya modeli, Fuko-nun "governmentality" yanaşması və Tokvilin demokratik sistemlərdə icra hakimiyyətinin həm mərkəzləşmə riski, həm də ictimai nəzarətə açıq olması barədə analizləri ilə tamamlanır, müasir dövrdə isə Kreyq və Tomkins, Dayzenhaus, Kempbell, Rokman və Aberbax kimi tədqiqatçılar icra hakimiyyətinin hüquqi sərhədləri, fövqəladə vəziyyətlərdə davranışı və siyasi kontekstdən asılı dəyişkənliyini konkret empirik və institusional müstəvidə izah edirlər.

Tədqiqatın II fəsli **"Prezidentlik institutu və onun müasir formaları"**nı araşdırır. Fəslin ***"Prezidentlik institutu hakimiyyətin icra mexanizmi kimi"*** başlıqlı I paraqrafında əsas yanaşma ondan ibarətdir ki, prezidentlik institutunun müasir tipologiyası klassik "prezident respublikası" anlayışı ilə məhdudlaşmır və daha mürəkkəb

struktur fərqləri əsasında formalaşır; burada əsas fərqləndirici meyar prezidentin icra hakimiyyəti üzərində real nəzarət dərəcəsi və digər hakimiyyət qolları ilə münasibətləridir. Bu çərçivədə ABŞ modeli klassik prezidentlik sistemi kimi təqdim olunur və burada prezident həm dövlət, həm də hökumət başçısıdır, lakin Konqres və Ali Məhkəmə tərəfindən sərt "*checks and balances*" mexanizmi ilə məhdudlaşdırılır; əksinə, Latın Amerikası ölkələrində, məsələn Braziliya və Argentina kimi nümunələrdə formal olaraq oxşar model olsa da, prezidentin siyasi çəkisi və institusional mühit fərqli olduğuna görə sistem daha çox icra hakimiyyətinin dominantlığına meyllidir.

Həmçinin yarı-prezidentlik modelləri ayrıca tipologiya kimi fərqləndirilir və burada Fransa ən tipik nümunə kimi çıxış edir; bu modeldə prezident və baş nazir arasında səlahiyyət bölgüsü mövcuddur və siyasi konfiqurasiyadan asılı olaraq icra hakimiyyətində balans dəyişə bilir. Məsələn, Fransa modelində prezident güclü xarici siyasət və təhlükəsizlik səlahiyyətlərinə malik olduğu halda, parlament çoxluğu fərqli siyasi düşərgədən olduqda "cohabitation" şəraiti yaranır və baş nazirin rolu güclənir; bu isə sistemin sabit deyil, kontekstual şəkildə işlədiyini göstərir. Bu tipologiya Polşa, Ukrayna kimi postsovet və Şərqi Avropa ölkələrində də tətbiq olunmuş, lakin institusional zəifliklər və siyasi elitanın strukturu səbəbindən tez-tez prezidentin üstünlüyü ilə nəticələnmişdir.

Müəllif qeyri-demokratik və ya hibrid prezidentlik modellərini ayrıca kateqoriya kimi təqdim edir və burada Rusiya, Çin və İran kimi ölkələr əsas nümunə kimi göstərilir; bu sistemlərdə prezidentlik formal olaraq konstitusion çərçivəyə daxil olsa da, real hakimiyyətin paylanması fərqli mexanizmlərlə müəyyən olunur. Rusiyada V.Putin dövründə prezidentlik güclü mərkəzləşmiş icra hakimiyyəti ilə xarakterizə olunur və partiya sistemi üzərində dominantlıqla möhkəmlənir, Çində isə prezidentlik ÇKP-nin Baş katibliyi ilə birləşərək faktiki olaraq partiya-dövlət sintezinin elementi kimi çıxış edir; İranda isə prezident seçkili olsa da, Ali Dini Rəhbərin mövcudluğu icra hakimiyyətinin ikili strukturunu yaradır və prezidentin səlahiyyətlərini ciddi şəkildə məhdudlaşdırır. Bu tipologiya göstərir ki, prezidentlik institutunun real mahiyyəti yalnız

hüquqi modelə deyil, siyasi rejimin xarakterinə, elita strukturuna və qeyri-formal hakimiyyət mexanizmlərinə bağlıdır.

Növbəti paraqrafda isə ***“Prezident idarəçiliyi beynəlxalq təcrübə kontekstində”*** başlığını daşıyır. Tədqiqatın bu hissəsində prezidentlik institutunun real işləmə mexanizmləri əsasən ABŞ, Rusiya, Çin, Türkiyə və İran nümunələri üzərindən sistemli şəkildə müqayisə edilir və bu müqayisə göstərir ki, eyni institut fərqli siyasi rejimlərdə tamamilə fərqli nəticələr doğurur. ABŞ-da prezidentlik sərt hakimiyyət bölgüsü və institusional nəzarət mexanizmləri ilə balanslaşdırılmış şəkildə fəaliyyət göstərir, Türkiyədə konstitusiya dəyişikliklərindən sonra prezidentin icra səlahiyyətləri genişlənərək daha mərkəzləşmiş model formalaşdırır, Rusiyada isə prezidentlik dominant icra hakimiyyəti və zəif balans mexanizmləri ilə xarakterizə olunur; Çin və İranda isə prezidentlik formal institut olsa da, real hakimiyyət partiya və ya dini rəhbərliklə bağlı alternativ mərkəzlərdə cəmlənir.

Bu ölkələr üzrə aparılan təhlil konkret olaraq göstərir ki, prezidentin səlahiyyətlərinin həcmi ilə yanaşı, onun parlament, partiya sistemi və digər hakimiyyət strukturları ilə münasibəti həlledici amildir. ABŞ-da prezident qanunverici orqandan institusional olaraq ayrıdır və onun üzərində real nəzarət mövcuddur, Türkiyədə prezident həm icra hakimiyyətini birbaşa idarə edir, həm də siyasi proseslərə aktiv təsir göstərir, Rusiyada isə prezident parlament üzərində faktiki üstünlüyə malikdir; Çin və İranda isə prezidentin səlahiyyətləri digər hakimiyyət mərkəzləri ilə bölüşdürülür və bu səbəbdən klassik prezidentlik modelindən ciddi şəkildə fərqlənir.

Burada həmdə Fransa, Almaniya və İtaliya nümunələri daha qısa, lakin funksional müqayisə üçün istifadə olunur və göstərilir ki, Avropa modellərində prezidentlik əsasən ya yarı-prezidentlik çərçivəsində balanslaşdırılmış icra hakimiyyəti kimi çıxış edir, ya da simvolik və məhdud səlahiyyətli institut funksiyası daşıyır. Fransa modeli prezidentin real siyasi təsirə malik olduğu yarı-prezidentlik sistemini təmsil etdiyi halda, Almaniya və İtaliyada prezidentlik daha çox mərasim xarakterli olub gündəlik idarəetmədə iştirak etmir; bu isə göstərir ki, prezidentlik institutu Avropa kontekstində icra

hakimiyyətinin mərkəzi deyil, daha çox institusional sabitliyi təmin edən əlavə mexanizm kimi çıxış edir.

**"Siyasi elmdə prezidentlik institutu modellərinin təsnifatı"** adlanan III fəsil 3 paraqrafdan ibarət olub, I paraqraf ***"Prezidentlik institutunun müasir modellərinin səciyyəvi və fərqli xüsusiyyətləri"*** haqqındadır. Bu bölmədə irəli sürülür ki, prezidentlik modellərinin təsnifatı sadə hüquqi bölgü deyil, bir neçə paralel meyarın birlikdə işlədiyi çoxölçülü analitik çərçivədir. İşin içində bu meyarlar altı əsas blok üzrə sistemləşdirilir: icra hakimiyyətinin xarakteri baxımından güclü icra modeli və simvolik mərasim modeli, qanunverici orqanla münasibət baxımından prezidentlik sistemi və parlament sistemi, partiya sisteminə görə təkpartiyalı dominantlıq və çoxpartiyalı koalisiyalar, müddət baxımından sabit müddət və müddət məhdudiyyətləri, nəzarət mexanizmlərinə görə güclü audit və məhdud audit, seçki üsuluna görə isə birbaşa və dolayı seçki. Xüsusilə vurğulanır ki, bu meyarların hər biri ayrıca deyil, qarşılıqlı əlaqədə işləyir; məsələn, güclü icra modeli çox vaxt məhdud audit, geniş veto səlahiyyəti, əsas təyinatlar üzərində nəzarət və böhranlara operativ reaksiya vermə imkanı ilə müşayiət olunur, mərasim modeli isə simvolik təmsilçilik, diplomatik görünürlük, milli birlik funksiyası və qərar qəbuletmədə hökumətin digər qollarından asılılıqla səciyyələnir. Eyni qaydada, prezidentlik sistemi sabit müddət, ayrıca legitimlik və icra ilə qanunvericilik arasında sərt sərhədlər yaradırsa, parlament modeli hökumət başçısının qanunverici çoxluqdan çıxması, etimadsızlıq səsverməsi ilə vəzifədən kənarlaşdırılması və icra-qanunvericilik birləşməsi ilə fərqlənir.

Müəllif prezidentlik modellərinin yalnız institusional deyil, eyni zamanda ideoloji tipologiyasını verir və dörd əsas model ayırır: liberal-demokrat, sosial-demokrat, avtoritar və ya güclü icraedici, həmçinin mühafizəkar prezident modeli. Liberal-demokrat model müntəzəm və birbaşa seçkilər, hakimiyyət bölgüsü, güclü nəzarət və tarazlıq, qanunun aliliyinə hörmət, fərdi hüquq və vətəndaş azadlıqlarının qorunması ilə xarakterizə olunur və onun nəzəri əsasları Con Lokk, Monteskye və Con Stüart Mill ilə bağlanır. Sosial-demokrat model bazar yönümlü iqtisadiyyatla rifah siyasəti arasında tarazlıq yaratmağa, iqtisadi bərabərsizliyi azaltmağa və

resursların daha ədalətli bölgüsünə yönəlir; burada Con Rouls və Karl Polanyi xətti əsas nəzəri dayaq kimi göstərilir. Avtoritar və ya güclü icraedici model sabitlik, idarəetmədə sürət, qərarvermədə mərkəzləşmə və məhdud nəzarət mexanizmləri ilə xarakterizə olunur, onun nəzəri əsasları realist xəttə və xüsusilə Tomas Hobbsun güclü hakimiyyət ideyasına bağlanır. Mühafizəkar model isə ənənə, sosial nizam, məhdud hökumət müdaxiləsi və azad bazar iqtisadiyyatını ön plana çıxarır; burada Edmund Burke və Fridrix Hayek kimi mütəfəkkirlərin təsiri açıq şəkildə vurğulanır. Əsas fikir odur ki, bu dörd model yalnız praktik sistemləri təsvir etmir, həm də fərqli normativ dünyagörüşlərin prezidentlik institutunda necə institusional forma aldığını göstərir.

Prezidentlik modellərinin təsnifatı yalnız formal konstitusiya mətnlərinə əsaslana bilməz, çünki onların real funksiyası mədəni kontekst, qeyri-formal institutlar, partiya sistemi, koalisiya siyasəti və qlobal təsirlər tərəfindən formalaşdırılır. Müəllif bu baxımdan institusionalizm, rəhbər-agent nəzəriyyəsi, konstitusionalizm, partiya sistemi nəzəriyyələri, koalisiya siyasəti yanaşmaları, eləcə də liberal, realist və konstruktivist beynəlxalq münasibətlər nəzəriyyələrini işə salır və göstərir ki, prezidentlik modelinin tipi yalnız prezidentin formal səlahiyyətlərindən yox, onun hansı partiya sistemində fəaliyyət göstərməsindən, veto və impiçment kimi mexanizmlərin effektivliyindən, seçki üsulundan, müddət məhdudiyyətlərinin olub-olmamasından və qlobal mühitin təzyiqlərindən asılıdır. Məsələn, təkpartiyalı dominantlıq sabitlik və vahid gündəm yaratsa da, məhdud audit və avtoritar meyllər riskini artırır, çoxpartiyalı koalisiyalar isə inklüzivlik və geniş təmsilçilik yaratsa da, qərarverməni ləngidə və uzun danışıqlara səbəb ola bilər. Eyni şəkildə, sabit müddət siyasi davamlılıq və uzunmüddətli planlaşdırma imkanı yaradır, amma qeyri-populyar liderliyin uzanması riskini daşıyır; müddət məhdudiyyətləri isə demokratik yenilənmə və hakimiyyətin şəxsləşməsinin qarşısını alma funksiyasına malikdir. Paraqrafın yekun tezisi budur ki, prezidentlik modellərinin təsnifatı siyasi sistemlərin yalnız hüquqi skeletini deyil, onların faktiki idarəetmə məntiqini, güc paylaşımını və ideoloji əsaslarını anlamaq üçün istifadə olunan kompleks analitik mexanizmdir.

III fəslin II paraqrafı ***“Prezidentlik modellərinin inkişaf perspektivləri və gələcək statusu”*** adlanır. Burada qeyd edilir ki, prezidentlik institutunun yaxın perspektivdə inkişafı qlobal miqyasda demokratik-liberal deyil, daha çox avtoritar-mühafizəkar meyllərin güclənməsi fonunda baş verir və bu, prezidentliyin strukturunu bir çox ölkədə daha mərkəzləşdirilmiş formaya yönəldir. Tədqiqatda bu dönüşün əsas səbəbləri kimi böyük dövlətlərarası geosiyasi rəqabət, iqtisadi bərabərsizlik və sosial narazılıq, rəqəmsal nəzarət texnologiyalarının yayılması, dezinformasiya və populist siyasətin yüksəlişi göstərilir; nəticədə güclü liderlik və sabitlik şüarı altında prezidentlik ətrafında şəxsiyyətə pərəstiş, fövqəladə halları əsas gətirərək icra səlahiyyətlərinin genişləndirilməsi, qanunverici və məhkəmə nəzarətinin zəiflədilməsi kimi tendensiyalar güclənir. Bu ümumi çərçivə daxilində ABŞ-da D.Tramp nümunəsi ilə icra hakimiyyətinin sərhədlərini genişləndirmək meyli, Türkiyədə R.T.Ərdoğan dövründə 2018-ci ildən sonra prezidentliyin parlament və məhkəmə nəzarəti hesabına gücləndirilməsi, Rusiyada isə V.Putin ətrafında prezidentliyin milli təhlükəsizlik, müharibə və millətçilik diskursu ilə daha da sərtləşməsi xüsusi olaraq vurğulanır; müəllifin fikrincə, bu hallarda prezidentliyin gələcəyi demokratik yenilənmədən çox, səlahiyyətlərin konsolidasiyası istiqamətində hərəkət edir.

Konkret region və ölkələr üzrə inkişaf trayektoriyaları fərqləndirilir və göstərilir ki, prezidentliyin gələcəyi vahid model üzrə deyil, siyasi rejimin xarakterinə uyğun müxtəlif istiqamətlərdə formalaşacaq. Türkiyə üçün müəllifin əsas proqnozu odur ki, seçki qələbələri, referendum ehtimalları və konstitusiya dəyişiklikləri prezidentin səlahiyyətlərini daha da genişləndirə, bu isə həm sərt idarəçiliyi möhkəmləndirə, həm də sosial qütbləşmə və institusional zəifləmə riskini artıra bilər; Rusiya üçün isə iki ssenari verilir: Ukraynada qələbə Putinin prezidentliyini daha da mərkəzləşdirəcək, millətçi legitimliyi gücləndirəcək və repressiyaları dərinləşdirəcək, əksinə məğlubiyyət və ya hakimiyyətdən gediş prezidentlik institutunu qeyri-müəyyən keçid, elita daxilində parçalanma və məhdud da olsa demokratik liberallaşma imkanları ilə üz-üzə qoyacaq. Çinlə bağlı müəllif göstərir ki, Tziyan Tzəmin və Xu Dzintao dövrünün nisbətən kollektiv və məhdudlaşdırılmış idarəetmə

modelindən fərqli olaraq Si Dzinpin mərhələsində prezidentlik partiya və dövlət daxilində hakimiyyətin birləşdiyi əsas mərkəzə çevrilmiş, müddət məhdudiyyətlərinin ləğvi, anti-korrupsiya adı altında siyasi təmizləmələr və müxalifətin sıxışdırılması ilə müşayiət olunan yeni model formalaşmışdır; bu model qısamüddətli səmərəlilik və ardıcıllıq versə də, uzunmüddətli perspektivdə institusional nəzarətin olmaması, siyasi səhv riskinin artması və sosial gərginliyin dərinləşməsi kimi problemlər yaradır. İran bu paraqrafda ayrıca geniş gələcək ssenarisi ilə işlənməsə də, ümumi məntiqdən aydın olur ki, seçkili prezidentliyin gələcəyi yenə də ali dini və institusional nəzarət çərçivəsi ilə məhdud qalacaq.

Müəllif Latın Amerikası, Avropa və ümumi qlobal mənzərə üzrə nəticəni sistemləşdirir və göstərir ki, prezidentliyin gələcəyi hər regionda fərqli institusional gerçəkliklərə uyğun inkişaf edəcək. Latın Amerikası üçün ikiqat dinamikanı vurğulayır: bir tərəfdən müntəzəm seçkilər, hakimiyyət ötürülməsi və demokratik institutların möhkəmlənməsi cəhdləri davam edir, digər tərəfdən yoxsulluq, bərabərsizlik, korrupsiya və populizm prezidentliyin avtoritarlaşmasına zəmin yaradır; Argentina nümunəsində X.Mileinin seçilməsi prezidentlik institutunun daha qarşıdurmacı, mərkəzləşdirici və siyasi quruluşu sarsıdan istiqamətdə hərəkət edə biləcəyini göstərən konkret hadisə kimi təqdim olunur. Avropa üçün vahid prezidentlik perspektivi təqdim etmir, əksinə bildirir ki, qitədə həm güclü icraedici prezidentlik, həm də simvolik prezidentlik yanaşı mövcuddur, lakin Rusiya və Türkiyə yönlü siyasət izləyən Macarıstan, Slovakiya, Serbiya və qismən Polşa kimi ölkələrdə prezident üsul-idarəsinə meylin artması mümkündür; bu isə parlament sistemindən icra hakimiyyətinin gücləndirilməsinə doğru institusional sürüşmə riskini göstərir. Paraqrafın yekun nəticəsi budur ki, ABŞ-da prezidentlik güclü, lakin balanslaşdırılmış mərkəzi institut olaraq qalacaq, Rusiya və Türkiyədə prezidentlik daha da konsolidasiya olunmuş mərkəzi sütuna çevriləcək, Çində mərkəzləşmə davam edəcək, Latın Amerikasında isə ölkədən-ölkəyə dəyişən, həm demokratik, həm populist-avtoritar ehtimalları birləşdirən qarışıq trayektoriya üstün olacaq; ümumi mənzərə isə prezidentlik institutunun gələcəyinin demokratik-liberal və avtoritar-

mühafizəkar qüvvələr arasındakı qlobal mübarizə ilə müəyyən olunacağını göstərir.

Həm III fəslin, həm də tədqiqatın sonuncu paraqrafı ***"Azərbaycan Respublikasında prezident idarəçiliyi: identik və fərqli cəhətlər"*** başlığı ilə Azərbaycanda prezidentlik institutunun klassik nəzəri modellərin mexaniki tətbiqi nəticəsində deyil, konkret tarixi-siyasi böhran şəraitində funksional zərurət kimi formalaşmış olduğunu göstərir; onun ilkin məqsədi idarəetmə boşluğunu doldurmaq, sabitliyi bərpa etmək və dövlət suverenliyini təmin etmək olmuşdur. 1990-1991-ci illərdə Sovet idarəetmə sisteminin dağılması, hüquqi nəzarətin çökməsi, ictimai asayişin zəifləməsi və icra hakimiyyətinin institusional zəifliyi fonunda prezident postunun təsis edilməsi mərkəzləşdirilmiş qərarvermə mexanizminə ehtiyacın birbaşa nəticəsi kimi çıxış edir; bu baxımdan prezidentlik institutunun yaranması yalnız konstitusion dəyişiklik deyil, həm də siyasi mədəniyyətin zəifliyi, hüquqi nihilizm və dövlət orqanlarına etimadsızlıq kimi problemlərə cavab idi. Konkret olaraq göstərilir ki, prezident həm daxili idarəetmədə arbitraj funksiyasını yerinə yetirməli, həm də dövlətin beynəlxalq səviyyədə vahid təmsilçiliyini təmin etməli idi və bu, Azərbaycanın ilkin dövlət quruculuğu mərhələsində icra hakimiyyətinin gücləndirilməsini struktur baxımdan qaçılmaz etmişdir.

Azərbaycanın prezidentlik modelinin konstitusion quruluşu və funksional mexanizmləri konkret şəkildə təhlil olunur və əsas tezis kimi göstərilir ki, ölkədə prezident həm dövlət başçısı, həm də icra hakimiyyətinin rəhbəri kimi çıxış edən vahid mərkəzdir, lakin bu, formal olaraq hakimiyyət bölgüsü prinsipinin inkarı deyil, onun spesifik interpretasiyasıdır. 1995-ci il Konstitusiyasının 7 və 8-ci maddələrinə əsasən qanunverici, icra və məhkəmə hakimiyyəti ayrıdır, lakin icra hakimiyyətinin prezidentə məxsus olması ona Nazirlər Kabinetinin formalaşdırılması, vitse-prezidentlərin təyin edilməsi, qanunların təsdiqi və geri qaytarılması, Konstitusiya Məhkəməsinə müraciət, xarici siyasətin aparılması və silahlı qüvvələrə rəhbərlik kimi geniş səlahiyyətlər verir; eyni zamanda fərman və sərəncam mexanizmi qanunların tətbiqini konkretləşdirən, boşluqları dolduran və qərarverməni sürətləndirən əsas alət kimi

təqdim olunur. Həmçinin xüsusilə vurğulanır ki, fərman mexanizmi qanunvericiliyi əvəz etmir, əksinə onu operativləşdirir və praktik icranı təmin edir, bu isə Azərbaycan modelinin əsas fərqləndirici xüsusiyyətlərindən biri kimi çıxış edir.

Tədqiqatda prezidentlik institutunun müasir mərhələdə transformasiyası və onun Azərbaycan siyasi sistemindəki real çəkisi konkret hadisələr və islahatlar əsasında izah olunur; əsas tezis kimi göstərilir ki, bu institut yalnız hüquqi mexanizm deyil, həm də liderlik, legitimlik və milli mobilizasiya ilə sıx bağlıdır. 2002, 2009 və 2016-cı il konstitusiya dəyişiklikləri, xüsusilə vitse-prezidentlik institutunun yaradılması idarəetmənin çevikliyini artırmaq və icra strukturunu daha funksional etmək məqsədi daşıyır; eyni zamanda 2020-ci il 44 günlük müharibə prezidentliyin faktiki siyasi çəkisini kəskin şəkildə artıraraq bu institutu yalnız idarəetmə aləti deyil, milli qələbə və dövlət gücünün simvolu səviyyəsinə qaldırmışdır. Burada konkret olaraq göstərilir ki, İlham Əliyevin müharibə dövründə operativ qərarvermə, hərbi-siyasi koordinasiya və beynəlxalq diplomatiyanı paralel aparmaq qabiliyyəti prezidentlik institutunun effektivliyinin praktik sübutu kimi çıxış edir və nəticədə Azərbaycan modeli xarizmatik liderlik ilə rasional-institusional idarəetmənin birləşdiyi hibrid forma kimi formalaşır.

Tədqiqatın **nəticəsinin** ümumi məzmunu ondan ibarətdir ki, prezidentlik institutu müasir siyasi sistemlərdə sadəcə formal icra orqanı deyil, dövlət siyasətinin formalaşdırılması, idarəetmənin istiqamətləndirilməsi və siyasi gücün təşkili baxımından mərkəzi institutlardan biridir. Prezidentlik modelləri vahid sxem üzrə işləməyir; onların formalaşması konstitusion quruluş, seçki mexanizmi, siyasi mədəniyyət, partiya sistemi, nəzarət və tarazlıq mexanizmləri, eləcə də tarixi və regional xüsusiyyətlərlə şərtlənir. ABŞ-da prezidentlik daha balanslaşdırılmış və institusional məhdudiyyətlərlə əhatə olunmuş model kimi çıxış etdiyi halda, Rusiya, Türkiyə və Çin nümunələrində icra hakimiyyətinin mərkəzləşməsi daha qabarıq görünür, İranda isə prezidentlik formal seçkili olsa da real hakimiyyət dini-siyasi mərkəzdə cəmlənir. Azərbaycan nümunəsində də prezidentlik institutu mərkəzləşdirilmiş idarəetmə modeli üzərində qurulmuş və dövlət proqramlarının

hazırlanması ilə icrası arasında birbaşa əlaqə yaradan əsas mexanizm kimi təqdim olunur. Prezidentlik institutunun real mahiyyətini anlamaq üçün yalnız hüquqi formaya deyil, onun faktiki işləmə mexanizmlərinə, siyasi mühitə və institutlararası münasibətlərə birlikdə baxmaq lazımdır.

**Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı əsərlərində əks olunmuşdur:**

1. Latın Amerikasında prezidentlik institutu // – Bakı: Geostrategiya, Beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal, – 2023. №5(77), – s.40-43.
2. ABŞ-da prezident hakimiyyəti institutu // – Sumqayıt: Elmi xəbərlər, Sosial və humanitar elmlər bölməsi, – 2023. №3, – s.56-61.
3. Methodological foundations of the concept of governance region // – Odessa: Актуальні проблеми філософії та соціології, – 2023. Випуск 45, – pp.144-150.
4. Hakimiyyətin icra funksiyası: Prezidentlik institusional mexanizm kimi // – Bakı: Geostrategiya, Beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal, – 2024. № 1(79), – s.37-41.
5. İcra hakimiyyətinin istitusionallaşması problemi // – Bakı: Tarix və onun problemləri, – 2024. №1, – s.181-185.
6. Xarici ölkələrdə prezidentlik institutunun modelləri // 4. Uluslararası 29 ekim bilimsel araştırmalar sempozyumu, – Türkiyə, – 29-30 oktyabr, – 2022, – s. 41-46.
7. Prezidentlik institutu: tarixi, strukturu və dövlətdəki rolu // Yeni geosiyasi şəraitdə sosial inkişafın planlaşdırılması və proqnozlaşdırılması yolları, Gənc tədqiqatçıların respublika elmi-praktik konfransının materialları, – Bakı, – 20 oktyabr, – 2023, II hissə, – s.158-163.
8. Çin və İranda prezidentlik institutunun təhlili // Gənc tədqiqatçıların VII respublika elmi konfransı, – Bakı, – 15 mart, – 2024, – s.236-238.
9. Prezidentlik institutunun gələcəyinə dair təhlil // – Bakı: Tarix və onun problemləri, – 2024. №4, – s.200-204.

10. Dünya ölkələrinin təcrübəsində prezidentlik institutunun təhlili // – Sumqayıt: Sumqayıt Dövlət Universiteti, Elmi xəbərlər, – 2024. №4, – s.65-69.

Dissertasiyanın müdafiəsi “28” sentyabr 2026-cı il tarixində saat 13:30-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı şəhəri, Lermontov küçəsi, 74.

Dissertasiya ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat “22” avqust 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 21.08.2026

Kağızın formatı: A5

Həcm: 38663 işarə

Tiraj: 100